# COP29-un Azərbaycan üzrə "Gənclər İqlim Çempionu" elm və sənaye dairələrinin nümayəndələri ilə müzakirəyə qatılıb

COP29-un Azərbaycan üzrə "Gənclər İqlim Çempionu" Leyla Həsənova Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) "Balakhani Operating Company" və "Suraxanı Oyl" Əməliyyat Şirkətinin dəstəyi ilə təşkil edilən iqlim dəyişikliyi ilə bağlı maarifləndirici seminara qatılıb.

Şirkətdən AZƏRTAC-a bildirilib ki, seminar gündəmdə duran mövzu ilə bağlı çağırışları və imkanları nəzərdən keçirib, iqlim dəyişikliyinə dair qlobal siyasətin formalaşmasında Azərbaycanın bu il ev sahibliyi edəcəyi beynəlxalq konfransın rolunu vurğulayıb.

Leyla Həsənova bildirib ki, COP29 konfransından əvvəl Bakıda baş tutacaq COY19 (Gənclər Konfransı) ölkəmizə dünyanın müxtəlif ölkələrindən 400-dən çox gənc cəlb edəcək və beləliklə, onlar iqlim dəyişikliyi ilə bağlı vahid səs formalaşdıracaqlar.

Seminarda geniş məruzə ilə çıxış edən BMTİP-in Ətraf Mühit Layihələrinin sabiq rəhbəri, hazırda "Balakhani Operating Company" və "Suraxanı Oyl" Əməliyyat Şirkətinin müşaviri Çingiz Məmmədov BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının məqsədləri və bu Konvensiyaya qoşulmuş dövlətlərin öhdəliklərini izah edib. Xüsusilə, Azərbaycanın hədəfləri üzərində dayanan ekspert neft hasilatı ilə məşğul olan əməliyyat şirkətlərinin istixana qazlarının azaldılmasına yönəlmiş səmərəli tədbirləri, o cümlədən torpaqların yaşıllaşdırılması, tullantılardan təmizlənməsi, rekultivasiyası, çirklənmiş gölməçələrin qurudulması və lay suların zərərsizləşdirilməsinin verdiyi müsbət töhfələrdən danışıb.

Digər əsas məruzəçi, AzMİU-nun mühəndis sistemləri və qurğularının tikintisi kafedrasının müdiri professor Nurməmməd Məmmədov isə "Müasir binalarda enerji resursları" mövzusunda çıxış edərək, müasir tikililərdə enerjinin səmərəli idarə edilməsinin iqlim dəyişikliyi ilə mübarizədə mühüm addım olduğunu vurğulayıb. O qeyd edib ki, Bakıda enerji idarəetmə qaydalarına tam uyğun binalar tikildikdə, şəhərin enerji təchizatı sistemi daha az yüklənər. Professor Məmmədov əlavə edib ki, enerji səmərəliliyi yalnız inşaatçılar, kommunikasiya mühəndisləri deyil, şəhərsalma mütəxəssisləri, memarlar qarşısında da ciddi tələbələr qoyur.

Açıq və interaktiv müzakirə formatında keçirilən seminarda AzMİU tələbələri və müəllim heyəti üzvləri iqlim dəyişikliyi mövzusunda elm və sənaye dairələrinin nümayəndələrinə, o cümlədən praktiki suallarını ünvanlayıb, mövzu ilə bağlı ətraflı cavablar alıblar.

**AZƏRTAC**
**2024, 29 oktyabr**